# "Qisas" əməliyyatı bir daha "dəmir yumruğ"un gücünü göstərdi

"Vətən müharibəsinin başa çatmasından xeyli müddət keçməsinə baxmayaraq, Ermənistan hələ də sülh prosesindən yayınır. Davamlı olaraq yanlış istiqamətlərdə addımlar atır və bölgədə vəziyyəti gərginləşdirir. Sərhədçimizin yaralanması ilə nəticələnən növbəti təxribat da bir daha göstərdi ki, Ermənistan və havadarları sülh barədə düşünmür, siyasətlərini yanlış istiqamətdə davam etdirirlər. Lakin Ermənistanın silahlı qüvvələri tərəfindən məqsədyönlü şəkildə törədilən bu məkrli hərəkətin cavabı dərhal və layiqli şəkildə verildi. Prezident İlham Əliyevin dediyi kimi, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmır".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, Azərbaycanın həyata keçirdiyi "Qisas" əməliyyatı bizim "dəmir yumruğ"un gücünü bir daha sübuta yetirdi: "Azərbaycan ermənilərə yenə göstərdi ki, onların havadarlarının saxta vədlərinə aldanaraq çirkin niyyətlərini ortaya qoymaları mövcud situasiyada elə ən çox özlərinə ziyan vurur. Bu prosesdən ən çox əziyyət çəkən Ermənistan özü olur. Ona görə də İrəvan Aİ, Fransa və ABŞ kimi dövlətlərə regiona müdaxilə cəhdi üçün imkan yaratmamalı, bu yanlış təbliğata son qoymalıdır. Mövcud şəraitdə Azərbaycanın şərtlərini qəbul etmək Ermənistanın yeganə çıxış yoludur".

Ceyhun Məmmədov qeyd edib ki, Prezident İlham Əliyev bu məsələyə dəfələrlə münasibət bildirib: "Lakin Ermənistan hələ də məqsədli şəkildə bölgədə vəziyyəti gərginləşdirməyə davam edir. Ermənistan başa düşməlidir ki, heç kim onun arxasında dayana bilməyəcək. ABŞ və Fransanın bu regiona marağı ermənilərə yaxşı həyat vəd etmək deyil, Cənubi Qafqazda vəziyyəti gərginləşdirməklə öz mövcudluqlarını Ermənistanda saxlamaqdır".

Deputat, həmçinin Azərbaycanın həyata keçirdiyi "Qisas" əməliyyatının nümayiş etdirdiyi sərt reaksiyasını təqdir edib. Bildirib ki, ərazi bütövlüyümüzü və suverenliyimizi təhdid edən bütün qüvvələr ən qısa zamanda cəzalandırılacaqlar: "Son baş verənlərə görə Ermənistan rəhbərliyi, eləcə də Aİ missiyası, hərbçilər, instruktorlar, binoklçular məsuliyyət daşıyırlar. Aİ missiyası sərhədçimizin yaralanması ilə nəticələnən məqsədli təxribata münasibət bildirməli, cavab verməlidir. Ermənistan hakimiyyəti isə ciddi nəticə çıxarmalı və bilməlidir ki, təxribat cəhdləri davam edəcəyi təqdirdə Azərbaycanın addımları çox sərt olacaq. Ölkəmizə qarşı təxribatlara əl atmaq yolverilməzdir".

Ceyhun Məmmədov yekunda bir daha vurğulayıb ki, son 4-5 ayda barışığın əldə olunması üçün yaranmış mövcud şəraitdə belə məkrli addım atmaq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olmaq cəhdidir. Ona görə də regionda sülhün bərpa olmasını istəməyən bütün qüvvələr bu təxribat cəhdinə görə cavab verəcəklər.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 15 fevral, № 34.- S.13.